AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*   № 16 (1518), 24 - 30 may 2022-ci il   *Qəzet 2001-ci ildən çıxır.*




## Ədalətli oyun sahəsində fərqlənənlər mükafatlandırıldılar

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Ədalətli Oyunlar Komissiyası 2021-ci ilin yekunlarına əsasən, ədalətli oyunlar sahəsində fərqlənənlərə və "Ədalətli oyun ruhu" mövzusunda fotomüsabiqənin qaliblərinə mükafatlar təqdim etdi.

Mükafatlandırma mərasimdə Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Zemfira Meftaxetdinova, baş katibi Azər Əliyev, Azərbaycan Olimpiya Akademiyasının prezidenti Ağacan Abiyev, Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev və müxtəlif idman federasiyalarının nümayəndələri iştirak edirdilər.

*(ardı 2-ci səhifədə)*

## Yığma komandamız İspaniyada iki medala sahib çıxdı

İspaniyanın Pamplona şəhərində keçirilən bədii gimnastika üzrə "Challenge" seriyasına aid dünya kuboku yarışlarına yekun vurulub.

Yarışda ölkəmizi təmsil edən Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Darya Sorokinadan ibarət qrup hərəkətləri üzrə yığma komandamızın üzvləri 5 halqa, eləcə də 3 lent və 2 topla hərəkətlərin icrasına görə bürünc medallara layiq görülüblər.

Fərdi proqramda ölkəmizi təmsil edən millimizin üzvü Zöhrə Ağamirova halqa ilə 5-ci, topla 6-cı, lentlə çıxışına görə 7-ci olub.



## Qitə çempionatı 4 medalla yadda qaldı

Taekvondo üzrə yığma komandamızın üzvləri Böyük Britaniyanın Mançester şəhərində keçirilən Avropa çempionatında iştirak ediblər. Yarışa 13 taekvondoçu və 5 parataekvondoçu ilə yollanan komandamız 1 gümüş və 3 bürünc medala sahib çıxıb. Bu medallardan biri taekvondoçularımızın, 3-ü isə parataekvondoçularımızın payına düşüb. Parataekvondoçularımızdan İmaməddin Xəlilov (K-44, 70 kq) gümüş, Sabir Zeynalov (K-44 58 kq) və Sadiq Həmidov (K-44 63 kq) bürünc medala sahib çıxıb.

Taekvondo yarışlarında isə Rio-2016 Yay Olimpiya Oyunlarının qalibi Radik İsayev (+87 kq) Avropa çempionatının bürünc medalını qazanıb.

## *Kikboksinq üzrə Azərbaycan çempionatı keçirilib*

"Sərhədçi" İdman Olimpiya Mərkəzində kikboksinq üzrə XXVI Azərbaycan çempionatı keçirilib. Çempionatın açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, millət vəkilləri, idman ictimaiyyətinin tanınmış nümayəndələri iştirak ediblər. Tədbirdə əvvəlcə iştirakçı klubların üzvlərinin iştirakı ilə parad təşkil olunub və Azərbaycanın Dövlət Himni səsləndirilib.

AKF-nin prezidenti Orxan Əliyev tədbirdə çıxış edərək kikboksinqçilərimizin hətta pandemiya şəraitində də yüksək nəticələr göstərdiklərini bildirib.

Sonra çıxış edən gənclər və idman naziri Fərid Qayıbov və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə pandemiyadan sonra qapalı məkanda belə yarışın keçirilməsini bayram adlandırıblar.

AKF-nin fəxri prezidenti və İdarə Heyətinin sədri Adil Əliyev Vətən müharibəsində qələbənin qazanılmasında rolu olanlara təşəkkürünü bildirib.

Sonra Azərbaycan çempionatının keçirilməsinə verdikləri dəstəyə, eləcə də, bu idman növü üzrə qazandıqları uğurlara görə bir qrup şəxs mükafatlandırılıb. Həmçinin 44 günlük Vətən müharibəsinin şəhidlərinin ailə üzvləri plaketlərlə təltif olunublar.

Açılış mərasimi bədii hissə ilə davam edib.

Qeyd edək ki, Azərbaycan çempionatına mayın 22-də yekun vurulub. "Low kick və full contact" versiyaları üzrə keçirilən yarışın qalibləri Azərbaycanı avqustda Konyada keçiriləcək V İslam Həmrəylik Oyunlarında təmsil etmək hüququ qazanıb.

### A n o n s




## *Qılıncoynadanımız İtaliyada çempion oldu*

Səh. 3

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Rauf Bunyatəliyev:
## "Bizdə güclü bodibildinq məktəbi formalaşıb"

Səh. 4

## Mirheydər Sefiyev:
## "Hədəfimiz böyük futbola qayıtmaqdır"

Səh. 5




### *UEFA Çempionlar Liqası 2021/2022*

*FİNAL*

**"Liverpul" (İngiltərə ) - "Real Madrid" (İspaniya)**

28 may. Saat 23:00. Fransa (Paris) "Stad de Frans" stadionu

# Ədalətli oyun sahəsində fərqlənənlər mükafatlandırıldılar



(əvvəli 1-ci səhifədə)

Tədbirdə çıxış edən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə son iki ildə pandemiya ilə əlaqədar çətinliklərlə üzləşdiklərini vurğulayaraq dedi: "Bu gün bizim üçün əlamətdardır. Biz son iki ildə pandemiyaya görə çətinliklər çəkdik. Pandemiya bizim bir çox işimizi yarımçıq qoymuşdu. Bu günki tədbirimiz də həmin o yarımçıq qalan işlərimizdən birinin həllinə yönəlib. Bildiyiniz kimi, biz hər il ədalətli oyunlar sahəsində fərqlənənləri mükafatlandırırıq. 2021-ci ildə bu tədbiri pandemiyaya səbəbindən həyata keçirə bilmədik. Biz eyni zamanda "Olimpiya dünyası" qəzeti ilə birgə ədalətli oyunlar prinsipinə, ədalətli oyunların ruhuna uyğun fotomüsabiqə elan etdik. Həmin müsabiqənin qalibləri də bu tədbirdə mükafatlandırılacaqlar".

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə qeyd etdi ki, keçən il Azərbaycan Milli Olimpiya Komitəsinin hesabat-seçki Baş Məclisi keçirilib, yeni heyət müəyyənləşib. "Seçkilər zamanı Milli Olimpiya Komitəsinin rəhbərliyinə yeni üzvlər seçildi. Milli Olimpiya Komitəsinin keçmiş vitse-prezidenti Xəzər İsayev və keçmiş baş katibi Ağacan Abiyev komissiyalarda öz fəaliyyətini davam etdirirlər. Xəzər İsayev Ədalətli Oyunlar Komissiyasının sədri, Ağacan Abiyev isə Olimpiya Akademiyasının prezidentidir", - deyə MOK-un vitse-prezidenti bildirdi.

Tədbirdə çıxış edən Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışaraq, komissiyanın həyata keçirdiyi tədbirlər barədə məlumat verdi. Komissiya sədri fotomüsabiqəyə 173 fotonun göndərildiyini diqqətə çatdırdı: "Bu gün 2021-ci ilin yekunlarına əsasən, ədalətli oyunlar sahəsində fərqlənənlərə və "Ədalətli oyun ruhu" mövzusunda fotomüsabiqənin qaliblərinə mükafatlar təqdim olunacaq. Çalışacağıq ki, qaliblərin çəkdiyi şəkilləri Avropa Ədalətli Oyunlar Hərəkatının keçirdiyi müsabiqəyə təqdim edək. Biz bununla ən azından müsabiqədə iştirakımızı təmin edəcəyik", - deyə Xəzər İsayev bildirdi.

Sonra mükafatların təqdimetmə mərasimi keçirildi. "Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi" nominasiyasında mükafat MOK-un baş katibi Azər Əliyevə təqdim olundu. "Ədalətli oyun prinsiplərinə sadiq hakim" nominasiyasında Asif Şirəliyev (güləş), "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi" nominasiyasında isə Radiq Hüseynov (güləş) fərqləndi. "Ədalətli oyun prinsiplərinə sadiq idmançı" mükafatı isə karateçi Rafael Ağayevə verildi. "Ədalətli oyun prinsiplərinin ən yaxşı təbliğatçısı" (televiziya jurnalistləri arasında) nominasiyasına Rövşən Binnətli ("İdman" telekanalının direktoru), "Ədalətli oyun prinsiplərinin ən yaxşı təbliğatçısı" (qəzetlər arasında) nominasiyasına isə "Olimpiya dünyası" qəzeti layiq görüldü.

Daha sonra "Ədalətli oyun ruhu" mövzusunda fotomüsabiqənin qaliblərinə mükafatlar təqdim edildi. Belə ki, Zaur Mustafayev ("Trend" Beynəlxalq İnformasiya Agentliyi) birinci, Azər Əlizadə ("Olimpiya dünyası" qəzeti) ikinci, Dilavər Nəcəfov (Gənclər və İdman Nazirliyi) isə üçüncü oldu.

İlqar Cəfərov (AZƏRTAC) və Fərqanə Qasımlı (Azərbaycan Fotoqraflar Birliyi) isə həvəsləndirici mükafatlara sahib çıxdılar.

Mükafatlandırmadan sonra MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə qalibləri təbrik edərək onlara uğurlar arzuladı. "Mükafat alan hər kəsi təbrik edirəm. Onlar həqiqətən bu mükafata layiq insanlardırlar. Ədalətli oyun prinsipləri üzrə mükafat vermək çox çətindir. Çalışırıq ki, biz də bu zaman ədaləti qoruyaq, onu hər şeydən üstün tutaq. Bu ilki mükafat Rafaelə veriləndə onun Tokiodakı çıxışı və ədalət naminə görüşü davam etdirməsi prinsipi əsas götürülüb. Həmçinin "İdman" TV kanalı idmançıların təbliğində böyük rol oynayır və gözəl verilişlər hazırlayır. Ən əsası da bu verilişlər ədalət prinsiplərinə uyğundur. Başqa mükafatlar alanlar - Radik Hüseynov, Asif Şirəliyev və "Olimpiya dünyası" qəzeti də ədalətli olmağa çalışıb, ədalət prinsiplərini qoruyub. Mən indidən deyərdim ki, gələn ilin ədalətli oyunlar mükafatı məşqçilər üzrə Qurban Qurbanova veriləcək. O, "Marsel"lə oyunda möhtəşəm hərəkətinə, ədalət prinsipinə görə bu mükafata layiqdir", - deyə Çingiz Hüseynzadə qeyd edib.

Tədbirdən sonra mükafatalayiq görülən idmançı və mütəxəssislər təəssüratlarını "Olimpiya dünyası" qəzeti ilə bölüşdülər.

## "Bu mükafatın mənəvi tərəfi mənim üçün çox önəmlidir"

***Rövşən Binnətli ("İdman" telekanalının direktoru, televiziya jurnalistləri arasında "Ədalətli oyun prinsiplərinin ən yaxşı təbliğatçısı" nominasiyasının qalibi):***



- Hansı sahə olmasında asılı olmayaraq insanlar hər zaman ədalət prinsiplərinin arzusundadırlar. İstəyirlər ki, həmişə ədalətli olsunlar. Amma mənə elə gəlir ki, hər bir insan onu istəməkdən çox öz hərəkətində ədalətli davranmalıdır. Əgər hər kəs ədalətli davranarsa, dünya da ədalətli olar. Bu mənada mükafatın mənəvi tərəfi mənim üçün çox önəmlidir. Bu gün mükafat alan hər kəsi təbrik edir, işlərində uğurlar arzulayıram.

İstər şərhçi, istərsə də jurnalist kimi yazılarımda hər zaman ədalət prinsipini qorumuşam. Əgər hansısa bir formada yanlışlıq olubsa, o da inanın ki, təsadüf nəticəsində olub. Amma nə yazılarımda, nə də şərhlərimdə haqqı nahaqa verməmişəm.

Elə idman növü var ki, orada ədalətsizlik mümkün deyil. Amma bəzi idman növləri də var ki, orada subyektivlik çox yüksək səviyyədə olur və kimlərinsə düşüncəsinə görə ədalət prinsipləri kobud şəkildə pozulur. Bu da hakimlərin çıxışlara verdiyi idman növünə aiddir. Bu, əsasən, gimnastika növlərində geniş yayılmış haldır. Kimisi üçün ecazkar görünən kompozisiya aşağı, bəsit görünən kompozisiya isə yüksək qiymət alır. Tamaşaçı isə orada olan incəlikləri bəlkə də bilmir və ona elə gəlir ki, ədalət prinsipləri pozuldu. Ümumiyyətlə, hakimlərin fikrinə əsaslanan idman növlərində subyektivlik və ədalətsizlik mənə elə gəlir ki, daha yüksəkdir.

Həmçinin futbolda VAR sisteminin tətbiqində ədaləti bərpa etmək niyyəti olsa da, o özü ilə daha kobud ədalətsizliklər gətirdi. Yenə də orada subyektivlik və insan faktoru rol oynadı. Əgər insan faktoru həlledici rol oynayacaqsa, onda VAR sisteminə ehtiyac yox idi. Bu mənada düşünürəm ki, ədalətin qorunması yenə də insanın öz əlindədir.

## "Nominasiya qalibləri sırasında olmaq sevindiricidir"

***Radik Hüseynov (güləş məşqçisi, "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi" nominasiyasının qalibi):***

- Nominasiya qalibləri sırasında olmaq sevindiricidir. Bu mükafat həm idmançıların, həm də məşqçilərin daha həvəslə çalışmasına müsbət təsir edəcək. İnsana yüksək qiymət verəndə daha da həvəslənir və gələcəkdə məsuliyyətli olmağa çalışır. İstəyir ki, növbəti addımları cəmiyyət üçün nümunə olsun. Mənə təqdim olunan bu mükafata görə hər kəsə təşəkkürümü bildirirəm. Azərbaycan idmanı və idmançılarına yalnız haqlı, ədalətli qələbələr arzulayıram.

## "Bu mükafatın mənim üçün özünəməxsus gözəlliyi var"

***Rafael Ağayev (Tokio-2020 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı, "Ədalətli oyun prinsiplərinə sadiq idmançı" nominasiyasının qalibi):***



- Bu günə qədər bir çox mükafata sahib olmuşam. Amma bu mükafatın mənim üçün özünəməxsus gözəlliyi var. Bu, hər il bir idmançıya nəsib olur. Bu il nominasiya üzrə namizəd mən oldum. Təbii ki, çox sevinirəm. Mən bu etimada görə komissiya üzvlərinə minnətdarlığımı bildirirəm.

## "Müsabiqənin təşkilatçılarına və münsiflər heyətinə minnətdarlığımı bildirirəm"

***Zaur Mustafayev ("Trend" Beynəlxalq İnformasiya Agentliyinin əməkdaşı, "Ədalətli oyun ruhu" mövzusunda fotomüsabiqənin qalibi):***

- Müsabiqəyə müxtəlif mövzularda bir neçə şəkil göndərmişdim. Ən yaxşı şəkillərimlə müsabiqədə iştirak edirdim. Həmin şəkillərdən biri münsiflər heyəti tərəfindən seçilərək, birinci yerə layiq görüldü. 44 günlük Vətən müharibəsindən sonra Qələbə paradında çəkdiyim foto birinci yerə layiq görüldü. İlk dəfə idi ki, belə bir müsabiqədə iştirak edirdim. Müsabiqənin təşkilatçılarına və münsiflər heyətinə minnətdarlığımı bildirirəm. Mənimlə bərabər bu müsabiqədə iştirak edərək mükafatçılar sırasına düşən həmkarlarımı da təbrik edirəm.

# İdman və gənclər siyasəti sahələrində fikir mübadiləsi aparılıb

Gənclər və idman naziri Fərid Qayıbov respublikamızın rayon gənclər və idman idarələrinin rəisləri ilə görüşüb. Yerli idarələrin fəaliyyətinin daha da təkmilləşdirilməsinin vacibliyini vurğulayan nazir onlara gənclər evləri, Olimpiya İdman kompleksləri və digər təşkilatlarla daha sıx əməkdaşlıq şəraitində işləməyi tövsiyə edib. Bildirib ki, hər bir idarə öz fəaliyyətini müasir tələblərə uyğun qurmalıdır. Nazir müavinləri Mariana Vasileva və İndira Hacıyeva müvafiq olaraq, idman və gənclər siyasəti sahələrində görülməli işlərlə bağlı fikirlərini bildirib, təkliflərini diqqətə çatdırıblar.

Görüşdə F.Qayıbov gənclər və idman idarələrinin rəislərini dinləyib, onların təklifləri və problemləri ilə maraqlanıb.

# Paralimpiya komitələri arasında anlaşma memorandumu imzalanıb

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimovun Syerra-Leoneyə səfəri çərçivəsində bu ölkənin, eləcə də Qvineya və Liberiya Paralimpiya komitələrinin rəhbər heyəti ilə görüşüb.

AMPK-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, görüş iştirakçıları milli Paralimpiya komitələrinin fəaliyyətləri, ölkələrində idmanın inkişafı haqqında məlumat verib, gələcək əməkdaşlıq mövzusunda geniş müzakirələr aparıblar.

İ.Rəhimov milli Paralimpiya komitələrinin davamlı inkişafının təmin etmək məqsədilə digər ölkələrin müvafiq təşkilatları, eyni zamanda dövlət və beynəlxalq qurumlar ilə sıx əlaqədə olmalarını tövsiyə edib.

Tədbirdə görmə məhdudiyyətli şəxslərin idmana cəlb edilməsi, Liberiya və Qvineyanın da tezliklə Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasına (IBSA) üzv olmaları müzakirə olunub.

Sonra Azərbaycan, Syerra-Leone, Qvineya və Liberiya Paralimpiya komitələri arasında anlaşma memorandumu imzalanıb. Memorandum tərəflər arasında qarşılıqlı əməkdaşlığı və təcrübə mübadiləsini əhatə edir.

Görüşdə Syerra-Leone Olimpiya Komitəsinin, idman federasiyalarının nümayəndələri, eləcə də tanınmış idmançılar da iştirak ediblər.

# Bakı çempionatının qalibləri müəyyənləşdi

Hövsan Olimpiya İdman Kompleksində sərbəst və yunan-Roma güləşi üzrə U-15 Bakı çempionatına yekun vurulub. Paytaxtın müxtəlif klub və cəmiyyətlərindən sərbəst güləş üzrə 225, yunan-Roma güləşi üzrə isə 204 pəhləvan müxtəlif çəki dərəcələri üzrə mübarizə aparıb.

Sərbəst güləş yarışlarında Rəşid Nazarov (38 kq), Cəfər Cəfərov (41 kq), Şöhrət Ocaqov (44 kq), Abbas Hüseynov (48 kq), Elcan İsmayılzadə (52 kq), Amil Ələsgərov (57 kq), Ülfət Məmmədov (62 kq), Rəhman Rzayev (68 kq), Şeyxəli Babazadə (75 kq) və Fərhad Süleymanlı (85 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Klassiklərin yarışında isə Şahin Nəbiyev (38 kq), Vüsal İsmayıllı (41 kq), Səid Qurbanzadə (44 kq), Səyyad Nağızadə (48 kq), Cavidan Mirzəlizadə (52 kq), Yusif Əhmədli (57 kq), Məhərrəm Quluzadə (62 kq), Ayxan Əliyev (68 kq), Orxan Hacıyev (75 kq) və Nihad Kərimov (85 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medallara layiq görülüblər.

Qalib idmançılar Baş İdarə tərəfindən medal və diplomlarla təltif olunublar.

# Qılıncoynadanımız İtaliyada çempion oldu

İtaliyanın Padua şəhərində qılıncoynatmanın sablya növü üzrə Qran-Pri turnirinə yekun vurulub. Mübarizəyə əsas mərhələdən başlayan turnirin 1 nömrəli reytinq favoriti Anna Baştа ilk görüşdə ABŞ təmsilçisi Honor Consona 15:6 hesabı ilə qalib gəlib. Növbəti görüşündə yaponiyalı Yumi Vakitanı (15:10) mübarizədən kənarlaşdıran təmsilçimiz ən güclü 8-liyə yüksəlmək uğrunda keçirilən görüşdə digər Yaponiya qılıncoynadanı Şihomi Fukuşimaya 15:10 hesabı ilə qalib gəlib.




Burada qılıncoynadanımızın rəqibi italyan Rossella Qreqorio olub. Rəqibini 15:7 hesabı ilə məğlub edən Anna Başta yarımfinala yüksəlib. Yarımfinalda Yaponiya təmsilçisi Misaki Emura üzərində inamlı qələbə (15:9) qazanan Anna finalda gündoğar ölkənin daha bir sablyaçısı Risa Takaşima ilə qarşılaşıb. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən həlledici görüşdə rəqibini 15:11 hesabı ilə məğlub edən idmançımız Qran-Prinin qızıl medalına layiq görülüb.

A.Başta cari ildə Bolqarıstanın Plovdiv və Yunanıstanın Afina şəhərlərində keçirilən dünya kubokunun mərhələ yarışlarında da qızıl medal qazanıb.

Qılıncoynadanımız hazırda qadın sablyaçıların dünya reytinqində 4-cü sırada qərarlaşıb.

# *Aerobika gimnastikası üzrə Azərbaycan çempionatı və Bakı birinciliyi keçiriləcək*

Azərbaycan Gimnastika Federasiyası milli yarışlar mövsümünü aerobika gimnastikası üzrə Azərbaycan çempionatı və Bakı birinciliyi ilə davam etdirəcək. Mayın 25-də Bakı Olimpiya İdman Kompleksində keçiriləcək yarışda "Ocaq Sport" klubu, "Zirvə", "Grasiya" idman klubları və Sumqayıt Olimpiya İdman Kompleksindən 80 gimnast medallar uğrunda mübarizə aparacaq.

İdmançılar Bakı birinciliyində balacalar, uşaqlar, yeniyetmələr və gənclər, Azərbaycan çempionatında isə yeniyetmələr, gənclər və böyüklər yaş kateqoriyalarında mübarizə aparacaqlar.

Gimnastlar müvafiq yaş kateqoriyalarına uyğun olaraq fərdi, qarışıq cütlük, üçlük və qrup proqramında çıxış edəcəklər.

Gimnastikasevərlər bu dəfə də ölkəmizdə 2013-cü ilin sonlarından inkişaf edən aerobika gimnastikası üzrə yarışlarda yaşanacaq həyəcanlı anlara şahidlik etmək imkanı qazanacaqlar.

# Ruslan Lunyov Qranadada birinci oldu

İspaniyanın Qranada şəhərində Beynəlxalq Atıcılıq İdman Federasiyasının Qran Pri-2022 yarışının ilk qaliblərindən biri atletimiz Ruslan Lunyov olub. Həmvətənimiz 10 metr məsafəyə pnevmatik tapançadan atəş açmada qalib gələrək qızıl medal qazanıb. Azərbaycanlı atlet 26 ən güclü atıcı arasında fərqlənməyə nail olub.

Qranada Qran Pri-si mayın 29-dək davam edəcək. Tüfəng, tapança və stend atıcılığı üzrə yarışlarda 37 ölkədən 250-dən çox idmançı medallar uğrunda mübarizə aparır.

# Güləş millilərimiz təlim-məşq toplanışında iştirak edir

Güləş üzrə böyüklərdən ibarət yığma komandalarımız təlim-məşq toplanışlarını davam etdirir. Sərbəst güləş üzrə yığmamız mayın 8-dən baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında xüsusi fiziki hazırlığı əhatə edən toplanış keçir. Olimpiya Güləş Mərkəzində təşkil olunan hazırlıq prosesində İsveçrə, Estoniya və Latviya millilərі də iştirak edir. Toplanış mayın 25-dək davam edəcək. Komandamız bir neçə gün fasilə verdikdən sonra həmin məkanda növbəti toplanışa başlayacaq. Bu dəfə isə taktiki-texniki çalışmalara üstünlük veriləcək.

Yunan-Roma güləşi üzrə millimiz isə mayın 8-dən Türkiyə və Qazaxıstan yığmalarıyla birgə həm fiziki, həm də taktiki-texniki çalışmaları əhatə edən təlim-məşq toplanışı mayın 27-dək davam edəcək.

Qadınlardan ibarət yığmamız isə məşqləri Qazaxıstanda davam etdirir. Baş məşqçi əvəzi Rövşən Umudovun rəhbərliyi altında yerli komandanın üzvləri ilə birgə hazırlıq



toplanışı keçir. Baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Həsən Əliyevin rəhbərliyi altında 13 güləşçi hazırlıq prosesində iştirak edir. Ankaranın Elmadağ qəsəbəsində keçirilən təlim-məşq keçən xanım idmançılarımız toplanış başa çatdıqdan sonra Almatıda təşkil olunacaq Bolat Turlıxanov Kubokunda iştirak edəcək. İyunun 2-dən 5-dək təşkil olunacaq bu yarış ilin 2-ci reytinq turniri sayılır.

# "Advokat" qızıl medallarına qovuşdu

Mayın 22-də futzal üzrə İkinci Liqada XXVI turun oyunları keçirilib. "Atletiko Baku", "Timsport", "Baku Fire-3", "Rəvan" və "Advokat" komandaları mövsümü qələbə ilə başa vurublar. "Borçalı" - "Bibi-Heybət" dueli isə birincilərin təyin olunan vaxtda meydana çıxmaması səbəbindən keçirilməyib. "Hövsan" yarışdan kənarlaşdırıldığına görə, "Xan-Lənkəran" 3 xal qazanıb.

Turun sonuncu - "Advokat" - "İSMA Baku" oyunundan sonra isə mükafatlandırma mərasimi keçirilib.

Əvvəlcə iştirakçı komandalara təşəkkürnamələr verilib. Rəqib qapılarından 43 top keçirən "Advokat"ın hücumçusu Nurəli Əsədov mövsümün bombardiri olub. Ən yaxşı qapıçı "Baku Fire-3"ün qolkiperi Ümid Paşayev, ən yaxşı oyunçu isə "Rəvan"dan Ülvi Əliyev, ən yaxşı baş məşqçi isə "Advokat"dan Fuad Rzayev seçilib.

"Baku Fire-3"ə bürünc, "Rəvan"a gümüş, "Advokat"a isə qızıl medal, mükafatçılara diplomlar, qalib komandaya isə kubok təqdim olunub.

Voleybol

# *Federasiyanın vitse-prezidenti CEV-in iclasında iştirak edib*

Sloveniyanın paytaxtı Lyublyana şəhərində Avropa Voleybol Konfederasiyasının




(CEV) plenar iclası keçirilib. Qurumun İdarə Heyətinin bu ilin ikinci toplantısında Beynəlxalq Voleybol Federasiyasının (FIVB) prezidenti Ari Qraça, CEV prezidenti Aleksandr Boriçiç və CEV-in İdarə Heyətinin üzvləri iştirak ediblər. Yığıncaqda Azərbaycan Voleybol Federasiyasının vitse-prezidenti, CEV İdarə Heyətinin üzvü Cəlil Cəfərov da təmsil olunub. İclasa CEV prezidenti Aleksandr Boriçiç rəhbərlik edib. O, çıxışı zamanı FIVB-nin prezidentinin iclasda iştirakından məmnun olduğunu bildirib. A.Boriçiç qeyd edib ki, konfederasiyanı qarşıda gərgin yarışlar və böyük layihələr gözləyir: "CEV-in İdarə Heyətinin hər bir üzvü həmişə voleybolun inkişafı üçün çalışıb və yenə də əlimizdən gələni etməliyik".

FIVB-nin prezidenti Avropada və dünyada milli federasiyalara göstərilən dəstəyi vurğulayıb: "Biz 2017-ci ildən bəri Avropanın 56 federasiyasının 3 milyon İsveçrə frankından çox olan 110 layihəsini təsdiqləmişik. Bu ümumilikdə 521 layihənin bir hissəsidir və ümumi sərmayəsi 11 milyon frankdan çoxdur".

* * *

Azərbaycan Voleybol Federasiyasının (AVF) prezidenti Cavid Qurbanovun rəhbərliyi ilə İdarə Heyətinin geniş iclası keçirilib. İclasda 2021-2022-ci illər mövsümündə Super Liqa, Yüksək Liqa, Birinci liqaların və ölkə kuboku yarışının yekunu müzakirə olunub. Bunlarla yanaşı, qarşıda duran vəzifələr, voleybolun inkişafı, milli komandaların çıxış edəcəyi Avropa çempionatının təsnifat mərhələləri, V İslam Həmrəyliyi Oyunlarına komandaların hazırlığı haqqında fikir mübadiləsi aparılıb.

C.Qurbanov bildirib ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, idmana da göstərilən dövlət qayğısı sayəsində ölkə idmanı intibah dövrünü yaşayır. Milli komandamızın 9 dəfə Avropa çempionatının final mərhələsində, 4 dəfə dünya çempionatında iştirak etdiyini, klublarımızın Avropa kuboklardakı uğurlu çıxışlarını xatırladan federasiya prezidenti qarşıya əsas hədəf kimi iştirak ediləcək yarışlarda yüksək nəticə əldə etmək tapşırığı qoyub.

Pandemiyadan sonra bəzi çətinliklərin olmasına baxmayaraq, Azərbaycan çempionatının keçirildiyini qeyd edən C.Qurbanov deyib: "Çempionatda iştirak edən oyunçuların əksəriyyətinin gənclər olması sevindirici haldır. Paytaxtımızda, eləcə də bölgələrdə olan ucaboylu qız və oğlanları voleybola cəlb etmək lazımdır. Buna görə də yalnız paytaxtda deyil, rayonlarda məşq edən gənclərlə işləmək lazımdır".

İclasda qadın və kişilərdən ibarət milli komandalara baş məşqçi təyinatı rəsmiləşib. İdarə Heyətinin qərarı ilə Eldar Yusubov qadınlardan ibarət milliyə, Pərviz Səmədov kişilərdən ibarət yığmaya baş məşqçi təyin olunublar.

Daha sonra yeni təyin olunan baş məşqçilər onlara göstərilən böyük etimada görə AVF rəhbərliyinə təşəkkür edib, milli komandalarımızın uğurlu çıxışı üçün vacib amillərdən danışıb, təkliflərini veriblər.

C.Qurbanov məşqçiləri dinlədikdən sonra bildirib ki, əsas hədəf qarşıdakı yarışlarda uğurlu çıxış etmək və ölkəmizdə voleybolun yenidən inkişafına nail olmaqdır.

Regionlarda voleybolun inkişaf yolları, həmçinin klublarla iş birliyi barədə də müzakirələr aparılıb, İdarə Heyətinə lazımi tapşırıqlar verilib.

* * *

İyirmi iki yaşadək oğlan voleybolçulardan ibarət Azərbaycan milli komandası Avro-2022-nin ikinci təsnifat mərhələsində çıxışını başa vurub. E qrupunda yer alan millimiz ilk matçda yarışın ev sahibi olan Kosovo yığması ilə qarşılaşıb. Oyun komandamızın üstünlüyü ilə başlayıb. İlk setdə 25:17 hesabı ilə qalib gələn millimiz sonrakı hissələrdə də rəqibindən üstün olub - 25:11, 25:20. Beləliklə, ilk görüşdə 3:0 hesabı ilə qalib gələn Eldar Əliyevin komandası 3 xala yiyələnib. Qrupun digər matçında Niderland millisi Slovakiya ilə üz-üzə gəlib. Görüş Niderland millisinin 3:0 (25:22, 25:20, 25:21) hesablı qələbəsi ilə yekunlaşıb.

Komandamız ikinci oyununu qrupun favoriti sayılan Niderland millisinə qarşı keçirib. Priştinada "Gənclər və İdman Sarayı"nda keçirilən matçda qalib 4 hissədə müəyyən olunub. Görüş komandamızın 25:21 hesablı üstünlüyü ilə başlasa da, sonrakı setlər narıncıların qələbəsi ilə başa çatıb (25:23, 25:18, 25:21). Beləliklə, Niderland millisi 3:1 hesabı ilə oyundan qalib ayrılıb.

E qrupunda günün digər matçı isə Kosovo və Slovakiya milliləri arasında olub. Ev sahibinə 3:0 (25:8, 25:13, 25:13) hesabı ilə qalib gələn slovaklar 3 xalı aktivinə yazdırıblar.

Millimiz mayın 22-də qrupda son oyununa çıxıb. Komandamız seçmə mərhələnin sonuncu matçında Slovakiya millisi ilə qarşılaşıb. Matç rəqibin üstünlüyü ilə başlayıb. İlk setdə 25:16 hesabı ilə qalib gələn Slovakiya millisi sonrakı hissələri də aktivinə yazıb - 25:21, 25:13. Nəticədə rəqib 3 xalı 3:0 hesabı qələbə ilə əldə edib. Beləliklə, 3 görüşdən sonra 3 xal toplayan komandamız qrupu 3-cü pillədə başa vurub.

Yığmamızın yer aldığı E qrupunun birincisi son oyunda ev sahibi Kosovoya 3:0 (25:17, 25:19, 25:15) hesabı ilə qalib gələn Niderland yığması olub. Niderland millisi 9 xalla birinci, Slovakiya 6 xalla ikinci, Azərbaycan 3 xalla üçüncü və oyunları xalsız başa vuran Kosovo millisi isə turnir cədvəlində sonuncu olub.

Qeyd edək ki, təsnifat mərhələsində qrup qalibləri və ən yaxşı ikinci yerin sahibi iyul ayında Polşada keçiriləcək AVRO-2022-nin final mərhələsinə vəsiqə qazanıb.



**Bizim müsahibə**

***Bu günlərdə Azərbaycan Bodibildinq və Fitness Federasiyasının komandası İspaniyanın Santa-Susanna şəhərində keçirilən Avropa çempionatından Vətənə qayıdıblar. Yarış komandamız üçün uğurlu olub. Qitə çempionatına 11 idmançı ilə yollanan komandamız 5 medala sahib çıxıb. Bu medallardan ikisi qızıl olub.***

## Rauf Bunyatəliyev:
# "Bizdə güclü bodibildinq məktəbi formalaşıb"

Bu günlərdə Azərbaycan Bodilbilding və Fitness Federasiyasının prezidenti Rauf Bunyatəliyevlə görüşdük. Federasiya rəhbəri ilə görüş zamanı həm bodibildinqçilərimizin Avropa çempionatındakı uğurlu çıxışı və gələcək yarışlara hazırlıq məsələləri barədə söhbət etdik. Söhbət zamanı o da məlum oldu ki, iki ilə yaxın davam edən pandemiya bodibildinqçilərimizin məşq prosesinə o qədər də təsir etməyib. Onlar ev şəraitində olsa belə məşqlərini davam etdirərək hazırlıq səviyyələrini qoruyublar. Həttə ötən il idmançılarımızın qazandığı nəticələr bu fikrimizin əyani sübutudur.

"Koronavirus pandemiyasına görə ölkəmizdə müəyyən məhdudiyyətlər yarandı. Amma komandamız ötən ilin iyun ayından məşqlərə başladı. Bu ərəfədə 3 rəsmi yarışda - iki Avropa, bir dünya çempionatında iştirak etdik. Bundan başqa bodibildinqçilərimiz Gürcüstanda "Diamond Cup", Rusiyanın Krasnoyarsk şəhərində keçirilən mötəbər yarışda və "Arnold Klassik Avropa" turnirində çıxış ediblər. Bu yarışların hər biri komandamız üçün uğurlu oldu. Rusiyadakı yarışda komandamız bir gümüş medal qazandı. İspaniyada keçirilən Avropa çempionatında isə 4 idmançımızın hər biri Vətənə medalla qayıtdı. Bodibildinqçilərimiz yarışda 1 qızıl, 1 gümüş və 2 bürünc medala sahib çıxdılar. Gürcüstanda keçirilən "Diamond Cup" turnirində idmançımız Əli Qurbanlı birinci oldu. "Arnold Klassik Avropa" yarışı isə 2 qızıl medalla yadda qaldı.

Bundan başqa Dubayda keçirilən "Masters" yarışında idmançımız 1 qızıl medal qazandı. Dünya çempionatı da bodibildinqçilərimizin uğurlu nəticələri ilə əlamətdar oldu. Burada təmsilçilərimiz 1 gümüş və 2 bürünc medala sahib çıxdılar. Avropa çempionatında isə idmançılarımız 2 qızıl, 2 gümüş və 1 bürünc medala yiyələndilər. Beləliklə, idmançılarımız bir il ərzində mötəbər yarışlarda 7 qızıl, 5 gümüş və 5 bürünc medala layiq görülüblər. Qazanılan 17 medaldan 7-sinin qızıl medal olması isə Azərbaycan bodibildinq tarixində yeni bir uğurdur. Hələ bu vaxta qədər belə möhtəşəm nəticə olmamışdı. Bu medalların hər biri nüfuzlu yarışlarda qazanılıb. Bir sözlə, pandemiya



səbəbindən idman zallarının qapanmasına baxmayaraq, idmançılar ev şəraitində məşq edərək formalarını lazımi səviyyədə qorumağı bacardılar", - deyə Rauf Bunyatəliyev qeyd edib.

Federasiya rəhbəri söhbət zamanı bu yaxınlarda keçirilən ölkə çempionatı haqda da danışdı. O, bu yarışda iştirak etmək üçün müxtəlif bölgələri təmsil edən bodibildinqçilərin müraciət etdiyini bildirdi: "Mayın 1-də "Elektra Hall"da bikini-fitness, mens-fizik, klassik bodibildinq və bodibildinq üzrə Azərbaycan çempionatı keçirdik. Yarış çox yüksək səviyyədə təşkil olundu. Çempionatda paytaxt və bölgələri təmsil edən 53 idmançı iştirak edirdi. Bizim üçün sevindirici məqam ondan ibarət idi ki, Bakı ilə yanaşı, Sumqayıt, Naxçıvan, Gəncə, Saatlı və Şirvan şəhərini təmsil edən idmançılar da bu turnirdə çıxış edirdilər. Yarışa maraq həqiqətən də çox idi. Amma bununla belə, çempionat sayəsində yeni qabiliblər və yüksək səviyyəli idmançılar üzə çıxardıq", - federasiya prezidenti bildirdi.

Rauf Bunyatəliyev bizimlə söhbətində bu yaxınlarda təşkil olunan və komandamız üçün uğurlu nəticələrlə yadda qalan Avropa çempionatına da toxundu. O, nəticələr barədə danışarkən idmançımız Vüqar Verdiyevə qarşı hakimlərin qərəzli mövqedə olduğunu qeyd etdi. Nəticələrdən narazılığını rəsmi şəkildə bildirən komandamız müraciətdən sonra nəticəni qismən də olsa, dəyişməyə müvəffəq oldu. "Azərbaycan çempionatından sonra İspaniyanın Santa-Susanna şəhərində keçirilən Avropa çempionatına yollandıq. Komandamız bu yarışda 11 idmançı ilə təmsil olunurdu ki, onlardan da 7-si finala vəsiqə qazandı. Komandamız ümumilikdə bu yarışda iki qızıl, iki gümüş və bir bürünc medala sahib çıxdı. Təmsilçilərimizdən mens-fizikdə Əli Qurbanlı, muskularmens fizik kateqoriyasında isə Zaur Hafizov qızıl medallara layiq görüldü. Bodibildinq-mastersdə Vüqar Verdiyev (90 kq), bodibildinqdə isə Seymur Sadıqov (75 kq) gümüş medallara sahib çıxdılar. Bürünc medalları isə komandamıza bodibildinqdə çıxış edən Nizami Misirov (85 kq) qazandırdı. Avropa çempionatının final mərhələsinə vəsiqə qazanan digər iki idmançımızdan mens-fizikdə çıxış edən Təbriz Tarverdiyev və bodibildinqdə mübarizə aparan Fuad Quluzadə (+85 kq) isə dördüncü yerlə kifayətləndi. Zaur Hafizov və Əli Qurbanlı yarışda möhtəşəm performansla hər kəsin heyrətinə səbəb oldu. Qeyd edim ki, Zaur karyerasında ilk dəfə idi ki, Avropa çempionatında iştirak edirdi. Keçən il bu kateqoriyada Rasim Həsənov birinci olmuşdu. Bundan başqa bildirim ki, Zaur mayın əvvəlində keçirilən Azərbaycan çempionatında Rasimə uduzsa da, Avropa çempionatında birinci olmuşdu. Beləliklə, komandamız bu nəticə ilə 40 ölkə arasında yeddinci yeri tutdu.

Əslində, biz üç qızıl medal qazanmışıq, lakin hakim Vüqar Verdiyevi qızıl medaldan məhrum etdi. Bu qərəzli qərarı Beynəlxalq Bodibildinq Federasiyasının rəhbərliyi də bildi. Yarışda onu bürünc medalçı kimi elan edəndə rəsmi olaraq etiraz etdim və bütün protokolları qaldırdım. Maraqlı bir mənzərə ortaya çıxdı. On hakimdən altısı Vüqara birinci, dördü isə sonuncu yer vermişdi. Onlar elə düşünüblər ki, onun çiynində hansısa dolduruçu var. Mən onlara bildirdim ki, bu idmançının məşqçisi mənəm və 30 ilə yaxındır ki, rəhbərliyim altında məşq edir. Əgər onun çiynində nəsə varsa, cavabdehlik daşıyıram. Bundan sonra beynəlxalq qurumun prezidenti və hakimlər onu yaxından yoxlayaraq çiynində xalis əzələnin olduğunun şahidi oldular. Çempionatın baş hakimi dərhal bütün nəticələrin hesablanmasını tələb etdi və məlum oldu ki, Vüqar ikinci yeri tutub. Nəticədə, İspaniya Bodibildinq Federasiyasından tələb etdilər ki, idmançının qazandığı gümüş medal bodibildinqçimizə verilsin. Vüqar isə bürünc medalı sahibinə qaytardı. Amma mən bu nəticə ilə də razılaşmıram. Düşünürəm ki, Vüqar əslində birinci olmalı idi. Amma o, hakimlərin ədalətsiz qərarına görə, sonda gümüş medala sahib çıxdı.

Artıq son illərdə qazanılan nəticələrə əsasən demək olar ki, bizdə bodibildinq məktəbi formalaşıb. Öz yerli idmançılarımız rəsmi dünya və Avropa çempionatlarında mükafatçılar sırasında yer alırlar. Bu bizim uğurumuzdur, illərdir çəkdiyimiz zəhmətin nəticəsidir", - deyə Rauf müəllim bildirdi.

O, həmçinin bodibildinqçilərimizi qarşıda gözləyən mötəbər yarışlar barədə də danışdı. Əsas hədəfin noyabr ayında keçiriləcək dünya çempionatı olduğunu deyən R.Bunyatəliyev yarışda yalnız yüksək yerlər uğrunda mübarizə aparacaqlarını bildiridi. "Qarşıda bizi ciddi yarışlar gözləyir. İki idmançımız ABŞ-ın Florida ştatında keçiriləcək beynəlxalq yarışda iştirak edəcək. Bundan başqa idmançılarımız Çexiya və Gürcüstanda keçiriləcək yarışlara da dəvət alıblar. Həttə onların bilet pulu və digər xərcləri də təşkilatçılar tərəfindən qarşılanır. Amma mən




idmançılarımızla danışdım və onlara dünya çempionatının belə yarışlardan daha vacib olduğunu bildirdim. Noyabr ayında keçiriləcək bu yarışda 7-8 idmançımız iştirak edəcək. Həmin yarışda yalnız ən güclü idmançılarla təmsil olunacağıq. Bu yarışda da ən yüksək yerlər uğrunda mübarizə aparacağıq. Əgər kimsə bu yerləri tuta bilməyəcəksə, deməli bunun müəyyən səbəbləri var", - deyə Rauf Bunyatəliyev qeyd etdi.

***Azər Əlizadə***

# Basketbol Federasiyanın yeni loqosu və milli komandanın formaları təqdim edilib

Azərbaycan Basketbol Federasiyası yeni deviz - "Yeni nəfəs, yeni başlanğıc" müəyyənləşdirib. Bu barədə federasiyanın keçirdiyi tədbirdə açıqlama verilib.

Tədbirdə gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və federasiya prezidenti Emin Əmrullayev, ali təhsil ocaqlarının rəhbərləri iştirak ediblər.

Tədbirdə çıxış edən ABF-in seleksiya üzrə baş koordinatoru Zərbəli Sahibcanov federasiyanın əsas məqsədinin gənc nəslə basketbolu sevdirmək olduğunu bildirib: "Federasiya yeniyetmələr arasında basketbolun kütləviliyinin artırılmasına nail olmaq üçün




bir sıra tədbirlər həyata keçirir. Belə ki, şəhər və rayonlar arasında birinciliklər keçirilib, zona yarışları təşkil edilib. Aprel ayında zona yarışları keçirilib və 24 komanda finala vəsiqə qazanıb".

O qeyd edib ki, yarışlar vasitəsilə həm də, ölkə üzrə hündürboylu uşaqların axtarışı aparılıb. Eyni zamanda, fevralda ölkənin bir neçə bölgəsində fiziki tərbiyə üzrə məşqçilərlə seminarlar təşkil edilib. Tədbirlərin təşkilində əsas məqsəd, həm də basketbol haqda oyun qaydaları barədə məlumat vermək olub.

"Şəhər və rayonlar üzrə daxili birinciliklərdə qrupumuzun üzvləri bu yarışları müşahidə etməklə, şagirdlər arasında uyğun uşaqlar seçiblər. Bu turnirlərdə ümumilikdə 1416 komanda iştirak edib. Paytaxt Bakıda isə ümumilikdə 136 komanda yarışlarda iştirak edib. Federasiya tərəfindən 79 nəfər seçilib", - deyə Z.Sahibcanov əlavə edib.

Daha sonra federasiyanın yeni loqosu və milli komandanın formaları təqdim edilib. Loqoda basketbol topu, meydançası, bayraq lentləri və buta simvolu əks olunub. Qeyd edilib ki, loqodan veb-saytlarda, milli komandanın formalarında istifadə ediləcək.

Formalarda Azərbaycan yazısı və oyunçuların soyadı göstərilib.

Tədbirdə çıxış edən federasiya prezidenti Emin Əmrullayev təhsil sistemi ilə basketbolun vəhdətinin təşkili üçün çalışdıqlarını bildirib: "Basketbol idman növünə maraq böyükdür, amma uşaqlar arasında kütləviliyinin təmin olunması üçün məqsədyönlü işlərin görülməsi vacibdir. Bununla yanaşı, gənc idmançıların həm idmanla məşğul olması, eyni zamanda təhsilə diqqət etmələri üçün işlər görülməlidir. Uğur əldə etmək üçün intellekt də önəmlidir. Təhsil Nazirliyi olaraq məktəblərdə basketbolun inkişaf etdirilməsi əsas məqsədlərdən biridir. Uşaq basketbolu üzrə dünyanın tanınmış mütəxəssislərini də cəlb etmək və onlarla uzunmüddətli əməkdaşlıq etməyi düşünürük".

Federasiya rəsmisi hər şey lazımi qaydada gedərsə, 5-6 ildən sonra 16-17 yaşlılardan ibarət komandalar fərqli nəticələr göstərəcəyini bildirib: "Beş il ərzində artıq beynəlxalq yarışlarda uğurla çıxış edən komanda formalaşdırılacaq. Ali təhsil müəssisələrində komandaların daha da peşəkar şəkildə çıxış etmələri üçün xüsusi təqaüdlər də ayrıla bilər".

* * *

Azərbaycan Basketbol Federasiyası (ABF) "Yeni nəfəs! Yeni başlanğıc! " şüarı ilə yola çıxaraq, yenilənməyə və basketbolun təkmilləşdirilməsinə dair işlər görməkdə davam edir.

ABF-nin mətbuat xidmətindən verilən məlumata görə, federasiya rəhbərliyi bu idman növündə uğurlar qazanmış bir çox ölkələrin inkişaf addımlarından bəhrələnərək kişilərdən ibarət milli komandaya yeni baş məşqçi təyin olunması barədə qərar verib. Bundan sonra bu vəzifəni serbiyalı mütəxəssis Aleksandar Trifunoviç tutacaq. Ona köməkçi məşqçi kimi litvalı Aurimas Jasilionis yardımçı olacaq. Qeyd edək ki, baş məşqçi ilkin mərhələdə komandaya müəyyən şərtlər altında qəbul olunub. Qarşıya qoyulan ən mühüm şərtlərdən birincisi iyunun 28-dən iyulun 3-dək Maltada keçiriləcək kiçik ölkələr arasında Avropa çempionatının C divizionunda millimizin göstərəcəyi nəticə olacaq. Bu və digər bir neçə nəticə məlum olduqdan sonra məşqçi ilə müqavilənin uzadılması və ya xitam verilməsi məsələsinə baxılacaq.

Qeyd etmək lazımdır ki, yığma komandamızın sabiq baş məşqçisi Samit Nuruzadə əsas millimizə dəstək göstərməkdə davam edəcək. S.Nuruzadə burada məsləhətçi vəzifəsini icra edəcək.

Müsahibə

***Bir vaxtlar futbol üzrə Azərbaycan çempionatında “Xəzər-Lənkəran”, “Karvan”, “Şəmkir”, “Kəpəz” və “MKT-Araz” kimi klubların mübarizəsində stadionlarda boş yerlərə rast gəlmək olmurdu. Adlarını çəkdiyimiz klubların matçları böyük təntənə və bayram əhval-ruhiyyəsi ilə keçirilirdi. Lakin son illərdə həmin klublar əsas çempionatdan bu və ya digər səbəblərdən kənarda qalıblar. Bəziləri isə Birinci divizion və Region liqasında çıxışlarını davam etdirirlər. AFFA növbəti mövsümdə həmin klubların futbol ənənəsini davam etdirmək üçün yeni planlar həyata keçirmək istəyir. Belə ki, Birinci divizionda çıxış edən klubların sayının artırılması nəzərdə tutulub. Bunun üçün komandalar müraciət etməli və mövcud tələblərə cavab verməlidirlər.***

# Mirheydər Sefiyev:

# “Hədəfimiz böyük futbola qayıtmaqdır”



Birinci divizionda çıxış etmək üçün yerli futbol qurumuna müraicət edən klublardan biri də İmişlinin “Mil-Muğan” klubudur.

İmişli futbol ənənələri olan bölgələrdən biridir. Tarixə nəzər salsaq görərik ki, İmişlidə bu ənənə hələ 1965-66-cı illərdən başlayıb. Bu rayon “Muğan”, “Məhsul”, “Melorator”, “Energetik”, “Lokomotiv”, “MKT-Araz” və “Mil-Muğan” kimi futbol komandaları ilə ölkə çempionatında iştirak edib. Rayonda müxtəlif illərdə tanınmış futbolçular yetişib.

Futbol azarkeşləri “MKT-Araz”ın 2006-cı il iyunun 17-də İntertoto kuboku çərçivəsində Moldova “Tiraspol”una qarşı matçda 1:0 hesablı qalibiyyətini yaxşı xatırlayır. Bundan başqa komanda 2007-ci il iyulun 19-da doğma azarkeşlər önündə UEFA kuboku çərçivəsində Polşanın “Qrotslin” klubu ilə qolsuz heç-heçə etmişdi. Lakin bu yadda qalan nailiyyətlərdən bir müddət sonra “MKT-Araz” klubu maliyyə səbəbindən fəaliyyətini dayandırdı. Buna baxmayaraq, İmişli futbolsuz qalmadı. Rayon ölkə yarışlarında “Mil-Muğan” adı altında təmsil olunmağa başladı. Həmin klub hazırda da öz işini davam etdirir. Bütün bu məsələlərlə bağlı daha ətraflı məlumat almaq üçün klubun direktoru Mirheydər Sefiyevlə redaksiyamızda görüşüb, söhbət etdik. Müsahibimiz son dövrlərdə İmişli futbolunda baş verənlər barədə geniş məlumat verdi.

***- Mirheydər müəllim, xoş gəlmisiniz. İstərdik əvvəlcə hazırda İmişlidə futbolun hansı səviyyədə olması ilə bağlı məlumat verəsiniz.***

- Bildiyiniz kimi, İmişli futbol ənənələri ilə məşhur olan rayonlardan biri olub. 2006-cı il mart ayının 23-də İmişli şəhərində “MKT-Araz” futbol klubunun yeni stadionunun istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilmiş və Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdi. Bu müasir stadionda yüksək səviyyədə yarışların keçirilməsi mümkündür.

Qeyd edim ki, İmişlidə “MKT-Araz” klubu 2004-cü ildə yaradılıb. Lakin klub 2007-ci ildə maliyyə çətinliyinə görə fəaliyyətini dayandırdı. Bundan sonra isə Birinci divizionda çıxış etməyə başladıq. Birinci divizionda 2013-cü ildən “Mil-Muğan” klubu adı altında çıxış edirdik. Kluba bu günə kimi AFFA tərəfindən maliyyə dəstəyi və köməklik göstərilir. Hazırda bizdə 6 yaş üzrə qruplar fəaliyyət göstərir. Onlar həm ölkə, həm də Region liqasında oynayırlar. Bizim uşaq futbolunun hesabınadır ki, 20-dən artıq futbolçumuz həm Premyer Liqa, həm də Birinci divizion komandalarının heyətində çıxış edir. Hətta Türkiyə və Kiprdə çıxış edən futbolçularımız da var. 2015-2017-ci illər ərzində bizdə uşaq futbolu olmadığı üçün çalışdıq ki, həmin istedadlı uşaqlar digər komandalarda oynasınlar. Hətta bəzi gənc futbolçularımız var ki hərbi xidmətdən sonra da bir sıra komandaların heyətində çıxış edirlər. Bütün bu nəticələr uşaq futbolunun imkanlarından xəbər verir. AFFA-nın əvvəlki baş katibi Elxan Məmmədov uşaq futboluna xüsusi diqqət yetirirdi. “Mil-Muğan” klubu da bu diqqətdən daim bəhrələnib. Məhz bunun səbəbidir ki, komanda bu gün də ayaq üstədir. Bunun üçün Elxan müəllimə minnətdarlığımı bildirir, ona yeni işində uğurlar arzulayıram.

***- AFFA qarşıdakı mövsümdə birinci divizionda çıxış etmək üçün klubların sayını artırmağı planlaşdırır. Direktoru olduğunuz klubun bu yarışda çıxış etməsi üçün lazımi şərait mövcuddurmu?***

- İmişlidəki stadion 2006-cı il aprelin 26-da UEFA tərəfindən lisenziya alıb. Komandamız elə həmin ildə UEFA kubokunda və İntertoto kubokunda oynayıb. Həmin dövrdə UEFA-nın nümayəndəsi stadionumuzda olmuşdu. Burada yaradılan şərait imkan vermişdi ki, İmişlidəki bu idman arenası ali qrumun lisenziyasını alsın. Stadionda futbol yarışının keçirilməsi, futbolçuların məşqi, istirahəti və digər tələblərinin ödənilməsi üçün hər bir şərait indiyə qədər də mövcuddur. 7200 azarkeş tutumu olan stadion hazırda azyaşlı futbolçuların ixtiyarındadır. Burada 10 yaşdan, 17 yaşadək qruplar fəaliyyət göstərir. Birinci divizionda İmişlini təmsil edən “Mil-Muğan” komandasına etimad göstəriləcəksə, komandanın çıxış etməsi üçün mövcud bazamız var.

***- Bu günlərdə Region liqasında qalib müəyyənləşdi. Cəbrayıl komandası liqanın qalibi oldu. Bu yarışda sizin rayonunuz da təmsil olunurdu.***

- Məlumatımız var. “İmişli” komandası çıxış edirdi. Həvəskarlardan ibarət olan bu komandanın heyətində yerli futbolçular çıxış edirlər. Bu komandanın Region liqasından sonra birinci divizionda oynaması ilə bağlı fikirlər səsləndirilir. Mənə bildiriblər ki, “Mil-Muğan” 3 il Region liqasında iştirak etməyib. Amma həmin müddət ərzində “İmişli” komandası bu yarışda çıxış edib.

Fikrimcə, burada anlaşılmazlıq var. İmişli deyiləndə “Mil-Muğan” komandası təsəvvürümüzə gəlir. Qeyd edim ki, “Mil-Muğan” klubu AFFA tərəfindən maliyyələşir. Bu məsələnin necə həll olunacağı AFFA-nın səlahiyyətindədir. İnanıram ki, məsələ federasiyada müzakirə olunduqdan sonra ədalətli qərar veriləcək.

Qeydiyyat müddətinə qədər bizdən tələb olunan istənilən sənədləri AFFA-ya təqdim etməyə hazırıq. Region liqasında çıxış etmək üçün futbolçularımız da var. Bir sözlə, hər şey qaydasındadır.

***- Bu məsələ ilə bağlı AFFA-ya müraciət etmisiniz?***

- Bəli, bu yaxınlarda AFFA-nın yeni təyin olunan baş katibi Sərxan Hacıyevlə görüşmüşük. Görüşdə bu barədə müzakirələrimiz olub. Məsələ ilə bağlı Sərxan müəllimə ətraflı məlumat vermişəm. Qeyd etdiyim kimi, AFFA regionlarda futbolun inkişafına xüsusi diqqət ayırır. Fürsətdən istifadə edib Sərxan müəllimi yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edirəm. Onun gəlişindən sonra Premyer Liqa və Birinci divizionda mübarizə aparacaq komandaların sayı artırıldı. Mən bunu uğurlu başlanğıc hesab edirəm. İnanıram ki, bu Azərbaycan futbolunun inkişafı istiqamətində uğurlu addım olacaq. Bizim komandanın da güclü maddi-texniki bazası var. Düşünürəm ki, lazımi təhlillər aparılacaq və AFFA tərəfindən bu məsələyə obyektiv yanaşılacaq.





***- Yəqin ki, birinci divizionda çıxış etmək imkanı qazansanız yerli futbolçulara üstünlük veriləcək.***

- Əlbəttə, komandamız birinci divizionda çıxış edəcəyi təqdirdə çalışacağıq ki, yerli futbolçulara üstünlük verək. Hazırda digər komandalarda çıxış edən istedadlı uşaqlarımız var ki, onları yenidən heyətə cəlb edə bilərik. Onlar da bizimlə əlaqə saxlayır, komandada oynamağa hazır olduqlarını bildiriblər.

***- Əgər komandanız birinc divizionda oynamaq hüququ qazanarsa, “İmişli” komandasının heyətində çıxış edən futbolçulara da imkan yaranacaq?***

- Bəli. Ümumiyyətlə, biz komandanın heyətini İmişlidə seçimlər edərək müəyyənləşdirəcəyik. Əgər “İmişli” komandasında da yaxşı futbolçular varsa, onlar mütləq komandaya cəlb olunacaqlar.

***- Bir bölgənin iki komandası olmasına münasibətiniz necədir?***

- Bu komandalar birlikdə bir adla çıxış edə bilərlər. 2013-cü ildən sonra “MKT-Araz” fəaliyyətini dayandırdı. Həmin 2013-cü ildən “Mil-Muğan” adı altında çıxış edirik. Biz 9 ildir ki, bu adı qorumağa çalışırıq. Bütün sənədləşmə işləri bu klubun adı ilə bağlıdır. Bir sözlə, yekun qərarı AFFA verəcək. Hədəfimiz böyük futbola qayıtmaqdır. Biz istəyirik ki, necə olmasından asılı olmayaraq təki İmişlidə futbol olsun.

***- Uzun müddətdən sonra İmişlidə azarkeşlər yenidən stadionlarda görünmək imkanı əldə edəcək. Hesab edirik ki, İmişlidə futbola əvvəlki maraq yenidən bərpa olunacaq.***

- Bəli, “MKT-Araz”ın çıxış etdiyi dövrlərdə stadiona böyük azarkeş kütləsi toplaşırdı. Premyer Liqada çıxış etdiyi dövrdə İmişlidə böyük futbol bayramı keçirilirdi. Azarkeşlərin stadionda yaratdığı ab-hava futbolçulara böyük dəstək verirdi. Bu gün də İmişlidə futbolun olmağını çox istəyirəm. Qeyd etdiyim kimi, stadion 7200 azarkeş tutumuna malikdir. Ümid edirik ki, stadionumuz yenidən əvvəlki kimi azarkeşlərlə dolacaq.



***Anar Əhmədov***

# İşğaldan azad olunan torpaqlarımızda şahmat üzrə beynəlxalq turnir təşkil oluna bilər

Azərbaycan Şahmat Federasiyasının (AŞF) prezidenti, FIDE-nin vitse-prezidenti Mahir Məmmədov və AŞF-in birinci vitse-prezidenti Faiq Həsənov Azərbaycanın mədəniyyət paytaxtı Şuşada olublar. Səfərin əsas məqsədi işğaldan azad olunan torpaqlarımızda gələcəkdə şahmat üzrə beynəlxalq turnirin keçirilməsi üçün mövcud şəraitlə tanışlıq olub.

M.Məmmədov federasiyanın mətbuat xidmətinə açıqlamasında işğaldan azad olunan torpaqlarımızda beynəlxalq turnirin keçirilməsi ilə bağlı müzakirələrin aparıldığını və yarışın tarixi və digər məlumatlar dəqiqləşəndən sonra ictimaiyyətə məlumat veriləcəyini bildirib: "Bu gün rahat şəkildə Şuşaya səfər etdiyimizə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna minnətdarlıq etmək istəyirəm. Tarixi qələbənin qəhrəmanlarının ruhlarını ehtiramla yad etdik. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərə şəfa versin".

"Bir günlük səfər zamanı mövcud şəraitlə tanış olduq. Gənclər və idman naziri Fərid Qayıbovla mütəmadi olaraq əlaqə saxlayırıq. Nazirliklə məsləhətləşmələr davam edir. Səfalı torpaqlarımızda şahmat üzrə turnirin yaxın zamanlarda keçirilməsi müzakirə edilir", - deyə M.Məmmədov əlavə edib.

## Atıcılıq idmanı qaydalarındakı dəyişikliklər paytaxtımızda sınaqdan keçiriləcək

Beynəlxalq Atıcılıq İdmanı Federasiyası Lonatoda (İtaliya) keçirilən dünya kuboku yarışından sonra stend atıcılığı üzrə mövcud qaydaların optimallaşdırılması ilə bağlı bir neçə təklif alıb. Təkliflərin məqsədi yarışları bütün iştirakçılar üçün daha ədalətli və aydın, tamaşaçılar üçün cəlbedici etməkdir. Xüsusilə, VAR, heyətlərin püşkatması və marker lenti qaydaları diqqətdədir.

Təklif olunan düzəlişlər dünya kuboku yarışlarının təşkilatçıları ilə razılaşdırıldıqdan sonra Azərbaycanın paytaxtında sınaqdan keçiriləcək. Sınaqların nəticəsindən asılı olaraq, 2024-cü ildə keçiriləcək Paris Yay Olimpiya Oyunları başlamazdan əvvəl müvafiq qaydalara dəyişikliklər edilə bilər.



## ASAPES və Litva İdman Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ASAPES) Litva İdman Universitetinin (LSU) rektoru professor Diana Reklaytiyene ilə görüş olub. Görüş zamanı qonağa ASAPES-in fəaliyyətindən bəhs edən film nümayiş etdirilib, daha sonra Elmi-tədris laboratoriyası və Multimedia mərkəzinə baxış keçirilib. Qonaq hər iki mərkəzin fəaliyyət istiqaməti barədə məlumatlandırılıb.

Litva İdman Universitetinin rektoruna ASAPES-də təlim-tədris fəaliyyəti barədə ətraflı məlumat verilib, tələbə mübadiləsi, ikili diplom proqramları, elmi-tədris fəaliyyətinin birgə və səmərəli təşkili məsələləri müzakirə olunub.

Görüşün sonunda ASAPES və İdman Akademiyası və Litva İdman Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

## Zərərli vərdişlərlə mübarizəyə dəstək məqsədilə veloyürüş

Mayın 22-də zərərli vərdişlərlə mübarizəyə dəstək məqsədilə Azərbaycan Velosiped Federasiyasının (AVF) təşkilatçılığı ilə paytaxtda veloyürüş keçirilib. Türkiyənin "Yeşilay" Cəmiyyətinin təşəbbüsü, "Zərərli Vərdişlərə Qarşı" İctimai Birliyinin dəstəyi ilə təşkil olunan veloyürüşə Azneft dairəsindən start verilib.

Yürüşdə AVF, "Zərərli Vərdişlərə Qarşı" İctimai Birliyinin əməkdaşları, digər klubların üzvləri, eləcə də paravelosipedçilər və həvəskarlar iştirak ediblər. Velosipedçilər Dənizkənarı Bulvarla hərəkət edərək, Hərbi Qənimətlər Parkının qarşısında yürüşü başa vurublar.

Qeyd edək ki, bu gün zərərli vərdişlərə qarşı mübarizə məqsədilə dünyanın 75 ölkəsində veloyürüş keçirilib.



## Ədalət təmsilçimiz "A" kateqoriyalı yüksək hakimlik lisenziyası əldə edib

Beynəlxalq Cüdo Federasiyası (IJF) Qazaxıstanın Almatı şəhərində hakimlər üçün seminar və cüdo idman növü üzrə ən yüksək hakimlik dərəcəsi olan "A" kateqoriyalı beynəlxalq dərəcənin alınması üçün imtahan keçirib.

Seminar və imtahanda 13 ölkənin nümayəndələri, o cümlədən, ACF-in hakimlər üzrə meneceri Mətin Rəhimli iştirak edib.

İlk iki gün ərzində iştirakçılar hakimlərin yarışları dəqiq və səmərəli idarə etmələri üçün əyani vəsait kimi çoxsaylı video materiallarla tanış olublar. Daha sonra ədalət təmsilçiləri təlimin nəzəri hissəsinə dair imtahan veriblər.

Ardınca onlar mayın 13-15-də Almatı şəhərində baş tutan yeniyetmələrin və gənclərin Asiya kubokunda görüşləri idarə edərək praktiki imtahan veriblər. Hər iki imtahanı yüksək nəticə ilə keçən Mətin Rəhimli "A" kateqoriyalı yüksək hakimlik lisenziyası əldə edib.

Qeyd edək ki, sonuncu dəfə Azərbaycan təmsilçisi "A" kateqoriyalı hakimlik lisenziyasına 2014-cü ildə layiq görülüb. Beləliklə, 8 ildən sonra ilk dəfədir ki, cüdo idman növü üzrə ən yüksək hakimlik dərəcəsi qazanılıb.

*REDAKSİYANIN POÇTUNDAN*

# Masallı və Lerik idmançılarının uğurları

Bütün sahələrdə olduğu kimi, dövlətin idmana qayğısı da cənub bölgəsi Masallıda öz müsbət nəticələrini verir. Rayonun idmançıları iştirak etdiyi müxtəlif yarışlarda əldə etdikləri qələbələrlə hər birimizi sevindirir. Bu günlərdə Sabirabad rayonunda yunan-Roma güləşi üzrə (U-15 2007-2008-ci il təvəllüdlü idmançılar) yeniyetmələr arasında zona birinciliyində Masallı idmançıları yüksək nəticələrə sahib olublar. İdmançılar gərgin mübarizə şəraitində keçən yarışda 2 qızıl, 3 bürünc medal qazanıblar. Belə ki, Masallı rayon Gənclər və İdman İdarəsinin nəzdində Uşaq-Gənclər İdman Məktəbinin yunan-Roma güləşi üzrə məşqçi-müəllimi Qismət Əkbərovun yetirmələri olan Elmin Abuşov (38 kq) və Əmrah Əmrahov (44 kq) birinci yerə sahib çıxıblar. Əlinihad Bağıyev (44 kq), Nicat Tahirov (48 kq) və Ülvi Dadaşov (57 kq) isə yarışın bürünc medallarına layiq görülüblər.

* * *

Lerikdə idman sahəsində qazanılan uğurlar hər il artır. Artıq rayon idmançılarının qələbə sorağı respublika, Avropa, hətta dünya səviyyəli yarışlardan gəlir. Yaxın günlərdə başa çatan 15 və 17 yaşadək yeniyetmə oğlan və qızlar arasında ağırlıqqaldırma üzrə Azərbaycan birinciliyində rayon idmançıları iştirak etməklə yaxşı nəticəyə nail olublar. Bu münasibətlə rayon İcra Hakimiyyətinin inzibati binasında komandanın üzvləri ilə görüş keçirilib.

Tədbirdə çıxış edən Cəlil Baxşıyev idmançıları təbrik edərək, nailiyyətlərdə əməyi olan hər kəsə təşəkkürünü bildirib, qarşıdakı yarışlarda yeni qələbələr arzulayıb.

Millət vəkili İqbal Məmmədov ölkəmizdə idmana olan dövlət qayğısından, bu sahədə həyata keçirilən tədbirlərdən, idman və bədən tərbiyəsinin inkişafı, kütləviliyin təmin edilməsi məqsədilə görülən işlərdən ətraflı söhbət açıb, idmançıları əldə etdikləri nailiyyətlər münasibətilə təbrik edib.

Lerik rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov isə çıxışında ağırlıqqaldırma üzrə Azərbaycan birincilyində ölkənin bütün şəhər və rayonlardan idman cəmiyyətlərinin, klubların, mərkəzlərin, UGİM-lərin təmsil olunduğunu bildirib. "Yarışda 150-yə yaxın gənc atlet iştirak edirdi. Lerikdən isə bu yarışda 4 atlet təmsil olunurdu. Komandamızın üzvü Orxan İmanov 49 kq çəkidə respublika birinciliyinin qızıl medalını qazandı. Digər 3 idmançımız isə dördüncü yeri tutdu", - deyə Natiq İsaqov qeyd edib.

Atletlər Orxan İmanov, İsa Əliyev, Mirkamil Hüseynov, İsmayıl Həsənzadə və məşqçi Elvin Mirzəyev çıxışlarında onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.



Sonda idmançılara, məşqçiyə rayon İcra Hakimiyyətinin fəxri fərmanları və hədiyyələri təqdim olunub, xatirə şəkili çəkilib.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Bakı trasında pit-leynə daxil olma qaydası dəyişdirilib

Bakı trasının icraçı direktoru Arif Rəhimovun sözlərinə görə, bu il yürüşdən əvvəl təşkilatçılar pit-leynə girişi dəyişib, eləcə də yeni nəsil Formula 1 bolidlərinin alçaq klirensini (yolun səthi ilə avtomobilin mərkəzi hissəsinin ən alçaq nöqtəsi arasında məsafə) nəzərə alaraq bəzi bordürləri dəyişiblər.



Arif Rəhimov deyib: "Biz pit-leynə girişi azacıq dəyişmişik. Trasın özündə dəyişikliklər yoxdur, lakin Beynəlxalq Avtomobil Federasiyasının (FIA) xahişi ilə pit-leynə daxil olmanı daha təhlükəsiz etmək üçün bu qaydaları modifikasiya etmişik. Görək, bu dəyişikliklər nə ilə nəticələnəcək. Pilotlar pit-leynə giriş zamanı adətən çox səhvə yol vermirlər.

Bordür daşlarına gəlincə, adətən pilotlar yürüşdən sonra belə deyirlər: "Filan hissədə polad bordür yığışdırılmalı, filan hissədə isə əlavə olunmalıdır". Bakı trasının dar hissəsi olan İçərişəhər qarşısında döngəyə gəlincə, biz orada bordürləri gah götürür, gah da əlavə edirik. Maşınlar trasdan keçməyincə, qərarın düzgün verilib-verilməməsini bilmək heç vaxt mümkün deyil".

* * *

İyunda Bakıda keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisinə hazırlıq işləri çərçivəsində Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin nəzdində Bakı Marşal Klubu marşalların bacarıq və təcrübələrinin artırılması məqsədilə tədbir və təlimlərin təşkilinə start verib.

Bu məqsədlə mayın 21- də FHN Akademiyasında nazirliyin dəstəyi ilə yanğından mühafizə və xilasetmə üzrə ixtisaslaşmış marşallar üçün təlimlər keçirilib.

FHN-in Baş əməliyyat idarəsinin rəis müavini polkovnik Ağali Hüseynovun rəhbərliyi ilə təşkil olunan təlimlərin keçirilməsində məqsəd yarışlar zamanı baş verə biləcək fövqəladə hallarla bağlı əməliyyat və qarşılıqlı fəaliyyət planlarının reallığının yoxlanılması, yanğınların qarşısının alınması və nəticələrinin çevik şəkildə aradan qaldırılması üçün marşalların peşəkarlığının daha da artırılmasıdır.

Akademiyanın xüsusi ixtisaslı təlimtədris heyəti tərəfindən tədbir iştirakçıları üçün fövqəladə hallar, o cümlədən yanğın təhlükəsizliyinə dair biliklərin aşılanması, belə mümkün hadisələrin qarşısının alınması və xilasetmə tədbirlərinin təşkili istiqamətində onların bacarıqlarının möhkəmləndirilməsi məqsədilə təqdimatlar edilib. Praktiki hissədə fövqəladə hadisələr, o cümlədən yanğın təhlükəsizliyi və xilasetmə işlərində istifadə olunan xüsusi texnika və avadanlıqlarla davranış qaydaları əyani şəkildə izah edilib.

Qeyd edək ki, mayın 14-dən başlayan təlimlər artıq dördüncü dəfədir ki, keçirilir. Nəzəri və praktik hissələrdən ibarət bu təlimlərdə ümumilikdə 190 nəfərə yaxın marşal iştirak edib. Yarış müddətində 1400 marşalın iştirakı nəzərdə tutulub.

# Futbol motivləri və futbolun meridianları



*Mobil İSMAYILOV*

Futbol dünyasında hər zaman başa düşülməyən, ya da elə qəbul edilməyən çox hallar baş verir. Təəccüblənmək də, təəssüflənmək də futbol panoramasının içərisindədir. Nədənsə, vaxtı ilə braziliyalı futbol ulduzu Ronaldonun Fransa ilə dünya çempionatının finalında sanki özündə olmaması heç cür yadımdan çıxmır. O vaxt müxtəlif versiyalar irəli sürdülər. Əslində göstərilənlər sadəcə ehtimallar idi. Məni düşündürənlər isə hələ də məni tərk etmir. Lakin bu barədə danışmayacağam. Çünki beynimdə dolaşanlar da mənim ehtimalımdır. Məhz həmin oyunda dahi futbolçu Zinədin Zidan yaddaşlara hopdu. Lakin sonralar Zidanın vacib matçda italiyalı Marko Materatsini başı ilə vurub yerə yıxması da futbolsevərlərə şok anlar yaşatdı. Həddindən artıq şişirdilmiş transfer qiymətləri də məni təəcübləndirən hallardan biridir. Xüsusən öz dövrləri üçün Poqba və Beylin fantastik məbləğə keçidləri sanki bu prosesin başlanğıcını qoydu. Qeyd etmək yerinə düşər ki, hər iki transfer özünü doğrultmadı. Bəzən dünya çempionatında iştirakı böyük ümidlə gözlənilən yığmalar nəinki uğurlu nəticələr göstərmir, hətta fiaskoya uğrayır. Məsələn, 2002-ci ildə Argentina, 2014-cü ildə Braziliya, 2018-ci ildə Almaniya. Fikrimcə, uğursuzluğun əsas səbəbi oyunçuların arxayınlığı, özlərinə həddən artıq güvənmələri və doymuş, bir qədər yaşlaşmış futbolçuların çoxluğudur. Yeri gəlmişkən, burada bir məqamı da qeyd etmək lazımdır. İndi məşhur futbolçular klublarda böyük pullar qazandıqlarına görə onların milli yığmalara münasibəti getdikcə dəyişməkdə davam edir. Belə futbolçular milli komandalara həvəssiz qoşulurlar, düşərgəyə, təlim-məşq toplantılarına müxtəlif bəhanələrlə getmək istəmirlər, zədələrdən, yorulmaqan ehtiyat edirlər. Necə deyərlər, fikirləri qalır klublarda. Belə getsə, kim bilir , bir də gördün, ABŞ, Kanada, Çin, Yaponiya, Afrika komandaları güclü Avropa və Cənubi Amerika ölkələrini üstələdilər. Şimali Makedoniyanın İtaliya kimi nəhəng futbol ölkəsinin dünya çempionatına yolunun bağlayacağına kim inana bilərdi? “Vilarreal”ın ÇL-də yarımfinala qədər gəlib çıxacağı gözlənilən idimi? “Mançester Siti”nin “Real” ilə oyunda 2 dəqiqəyə 2 qol buraxması hələ uzun müddət azarkeşlərə yuxu kimi qələcək.

### Karyeranı necə bitirməli?

Elə tanınmış futbol ulduzları olub ki, yalnız bir komandada oynamaqla karyeralarını başa vurublar. Məsələn, Maldini “Milan”da, Totti “Roma”da və sairə. Belələrinə həmişə, hər yerdə böyük rəğbət bəsləyiblər. “Everton”un yetirməsi olan və 2004-cü ildən “Mançester Yunayted”in şərəfini qorumuş Runi nəinki İngiltərədə, dünyanın hər yerində sevilib. Bu komandanın kapitanı 2017-ci ildə illərboyu əldə etdiyi şan-şöhrətdən sonra yaşı ötmüş vaxtında “Everton”a qayıdanda çoxları təəccübləndi. Yəni onun keçidi birmənalı qarşılanmadı. Mütəxəssislər, azarkeşlər belə hesab etdilər ki, Runi aşağı səviyyəli komandaya keçməkdənsə, karyerasını başa vursaydı, qazandığı nüfuzunu qoruyub saxlayardı. Ya da heç olmasa, ABŞ-a, Çinə, yaxud ərəb ölkələrinə yollansaydı, daha yaxşı qarşılanardı. Məsələn, Raul Qonsales, İnyesta və digər məşhurlar kimi. Yeri gəlmişkən, bu yanaşma elə müasir futbol tarixində öz imzasını qoymuş məşqçilərə də aiddir. Məsələn, Luçesku məhz fikrimcə, artıq yaşlı çağında “Zenit”in sükanı arxasına keçməli deyildi. Çünki hər şeydən əvvəl bu klub ümumiyyətlə məşqçilərə münasibət baxımından fərqli, özünəməxsus bir komandadır. Komandanın çempion ola bilməməsini rumın mütəxəssisin ayağına yazmaq olmazdı. Karyerasında ilk dəfə olaraq Luçesku öz iradəsindən asılı olmayaraq işlədiyi komandadan kənarlaşdırıldı. Bu baş məşqçi həmişə çalışdırdığı komandalardan öz təşəbbüsü ilə ayrılmışdı. Komandanın rəhbərliyi bildirdi ki, uğursuz nəticələrə görə bu addımı atdıq. Sonradan Luçeskunun özü də bu addımının yanlış olduğunu etiraf etdi. Mülahizələrimə görə o, həmçinin Türkiyə yığma komandasının baş məşqçisi postuna da getməli deyildi. Bu proqnozum da tezliklə öz təsdiqini tapdı. Bütün bunlara baxmayaraq Luçesku rəğbət bəslədiyim mütəxəssis olaraq qalır. Yeri gəlmişkən o, ənənəsinə sadiq qalaraq 2021-ci il mövsümündə də Ukraynada ilin məşqçisi elan edildi. Burada məşqçilərdən söz düşmüşkən nədənsə uelsli mütəxəssis Con Toşakın qoca vaxtında Lənkəranın “Xəzər” komandasına gəlişi yadıma düşdü...

Futbol mənzərəsində karyerasının qara günlərini keçirən, hətta ehtiyat oyunçular sırasına düşən ulduz futbolçulara da rast gəlinir. İndiki səs-küylü futbol dünyasında böyük pullar qazanmağa vərdiş edən ulduzlar dayanmaq bilmədən bir klubdan digərinə keçirlər. Lakin hətta bəzi super ulduz futbolçular da tədricən yüksək səviyyədə çıxış edə bilmirlər. Ən azından yaş artıq mane olur. Bununla belə “fəaliyyətlərini” mənasız şəkildə uzadırlar. Vaxtında getməyən belələrini azarkeşlər də qınamağa başlayırlar. Nəticədə vaxtı ilə alovlanıb yanan futbolçular yavaş-yavaş sönürlər. Beləcə də futbolsevərlərin gözündən düşürlər. Bu fikirlər elə vaxtı ilə tanınmış, yüksək reytinq qazanmış, amma artıq qocalmış məşqçilərə də aiddir. Beləleri ən azından mənim də futbol xatirələrimin müqəddəsliyini korlayırlar...

### Səhnəni vaxtında tərk etməyin vacibliyi

Təbii ki, məşhur futbol ulduzları super klubların formalarına göz dikirlər. Əlbəttə , hansı futbol ulduzu istəməz ki, “Kamp Nou”da, “Santyaqo Bernabeu”da oynamasın. İngiltərənin, İtaliyanın əfsanəvi arenalarında top qovmaq çoxlarının arzusu ola bilər. Stadionlardan söz düşmüşkən, fikrimcə Londonun “Uembli” arenası çox cazibəlidir. Vaxtı ilə gənclik illərimdə Moskvanın “Lujniki” stadionundan da xoşum gəlirdi.

Başa düşüləndir ki, ulduz futbolçular hər şeydən əvvəl reklamdan pul qazanmaq istəyirlər. Yeri gəlmişkən, Ronaldinyo, Bekhem, Ronaldu, Messi reklamdan ən çox pul qazanan futbolçular olub. Bekhem ulduz futbolçu olması ilə yanaşı xarici görünüşcə həm də populyar kino aktyoruna bənzəyirdi. Buna görə də əlavə reklamlardan da yaxşı gəlirlər əldə edirdi. Təbii ki, adı çəkilən futbolçuların vaxtı ilə çox parlaq dövrü olub. Onlar futbol aləmində səs-küy yaradan futbolçuların önündə gediblər. Onların istedadı, fərdi ustalığı, stili, eləcə də digər nüanslar başqalarında olmayıb.

Ronaldu və Messi haqqında isə mövzuya uyğun olaraq ayrıca danışmaq istəyirəm. Onların hər ikisinin xüsusi yeri, fəxr olunası imici var. Hər ikisinin yalnız özlərinə məxsus olan maneraları, oyun tərzi, topla davranışları gənclik illərindən formalaşıb. Əsl dahi futbolçu adını çoxdan qazanıblar. Amma bu, dünənə aiddir. Bəs bu gün? Bəs sabah necə olacaq ? Etiraf edək ki, hərdən Ronaldu yaşının bu vaxtında, indi də onu sevənləri, tamaşaçıları heyrətləndirməkdə davam edir. Hələ “Yuventus”da oynadığı vaxtlar onun



elə qolları olurdu ki, hər kəsi büsbütün heyran edirdi. Məsələn, onun Turində “Atletiko” ilə oyununa baxarkən, mənə elə gəlirdi ki, sehirli bir mənzərənin əhatəsində sonsuzluğa doğru gedirsən. Rəqibin baş məşqçisi Simeoneyə elə onun tərzində “cavab verməsini” isə azarkeşlər heç vaxt unutmayacaqlar. İndiki qarışıq, mürəkkəb futbol dünyasında belə jestlərlə “əvəz çıxmaq”, özü də arenada buna nail olmaq heç də asan deyildir. Mütəxəssislər belə deyirlər ki, bəzən yeni futbolçuların gəldikləri yerli mühitə, iqlimə adaptasiya olunmaları müəyyən vaxt aparır. Bu fikirə mən də əlavə edirəm ki, çox istedadlı futbolçularda bu, hiss olunmur. Ronaldu Mançesterə gələn kimi bir-birindən gözəl qollar vurmağa başladı. Amma tədricən onun sönük oyunları da müşahidə olunurdu. Sanki stabilliyi nizamlaya bilmirdi. Məsələn “Tottenhem”lə əla oyun göstərən və het-trik edən portuqaliyalı ÇL-də “Atletiko” ilə qarşılaşmada heç nə ilə yadda qalmadı. Kim necə izah edirsə-etsin, məncə yaş öz sözünü deyir. Ancaq hər bir halda yenə də Ronaldu hələlik elə Ronaldu kimi görünür. Fikrimcə, bu gün Ronaldu əzəli rəqibi Messini üstələyir. O ki qaldı sabah məsələsinə - bəli, bu barədə düşünmək lazımdır. Və qəqin ki, o da müəyyən planlar qurur. Təsadüfi deyildir ki, hələ bir neçə il bundan əvvəl Ronaldu müsahibələrinin birində ABŞ-da yaşamaq istədiyini bildirmişdi.

### Nə qədər ki, dünya sizin əlinizdədir...

Hər bir insanda olduğu kimi futbolçunun da həyatında faciəvi səhvlər olur. Adi futbolçu üçün bu bağışlanılan haldır. Dahi futbolçuların davranışında baş verən belə səhvlər heç vaxt yaddan çıxmır. Şedevr axtaran azarkeşlər belə hallarda şoka düşürlər. Axı, futbolun da özünəməxsus nokdaunları və nokautları olur.

Futbol dünyasında da formalaşmış imiclər var. Və bunları gərək qoruyub saxlayasan... Messini görmək üçün fanatlar yağışın altında dayanıb onu gözləyirdilər. Çılğın tamaşaçılardan hətta saatlarla leysan yağışın altında gəzişənlər də olurdu. Bu futbol ulduzunu görmək üçün dünyanın hər yerindən “Kamp Nou”ya axışırdılar. Onu qarşılamağı özləri üçün xoşbəxtlik hesab edirdilər. O, zədələnəndə azarkeşlər şoka düşürdülər. Futbol dünyası üçün silinməz iz qoyan Messi “Barselona”da futbolun epogeyini fəth etdi. Və günlərin bir günü (!) əfsanə PSJ-yə gəldi...

Taleyin ironiyasına baxın. 2021-ci ilin sentyabrında Fransa çempionatının ikinci təqvim matçının “Lion” ilə prinsipial qarşılaşmasının 76-cı dəqiqəsində Messi heç kimin gözləmədiyi halda əvəzləndi. Heç vaxt əvəzlənməni gözləməyən, sanki çaşıb qalmış Messinin sifətində həmin anda xoşagəlməz bir ifadə gördüm. Əsəbilikdən çox sanki yazıqlığa bənzəyirdi bu ifadə. Mənə də təəccüblü gəldi ki, Poçettino stadionu tam doldurmuş azarkeşlərin gözləri qarşısında, dünya futbolsevərlərinin baxdığı oyunda Mbappe, Neymar da meydanda olduğu halda yeni transfer olunmuş futbol dahisini əvəzlədi. Bəlkə də kubok, yaxud elə də əhəmiyyət kəsb etməyən adi bir təqvim oyununda bu baş versəydi, Messinin meydandan çıxması təəccüblə qarşılanmazdı. Onsuz da bu ana qədər Messi artıq daxili sıxıntı və gərginlik keçirmişdi. Təhlükəli nöqtədən onun vurduğu cərimə zərbəsi dirəyə tuş gəlmişdi. İkinci dəfə rəqib komandanın qapısına cərimə zərbəsi təyin olunduğu zaman Neymar nümayişkarcasına topu qamarlayaraq, Messini pərt vəziyyətə salmış və özü uğursuz bir zərbə endirmişdi. Daha sonra penalti şansını da ona verməyən Neymar zərbəni özü yerinə yetirmişdi. Bütün bunlar yəqin ki, Messiyə təsir etmişdi. Təbii ki, bu dəyişikliyə görə Poçettinonu qınayanlar da az deyildi. Hətta komandanın rəhbərliyi də buna görə baş məşqçiyə irad tutmuşdu. Poçettino özü müsahibəsində bildirmişdi ki, klub dəyişmiş futbolçuda həmişə çətinliklər olur. Yeni komanda yoldaşlarına alışmaq bir qədər vaxt aparır. Həm də Messini zədələrdən qorumaq məqsədi ilə bu addımı atmışdı.

PSJ ilə “Mançester Siti”nin oyununda baş vermiş bir epizodu da yada salmaq istəyirəm. PSJ-nin qapısına cərimə zərbəsi təyin olunduğu zaman Messi heç kimin gözləmədiyi halda qaça-qaça gəlib qurulmuş səddin arxasında oyunçuların ayaqları altında yerə uzandı. Dünya şöhrətli ulduz adına yaraşmayan bir addım atdı. Karyerası ərzində Messi ilk dəfə idi ki, bu cür anlaşılmaz və qəbul edilməsi mümkün olmayan bir hərəkətə yol verdi. Nəhayət, “Real”a məğlubiyyətdən sonra “Bordo” ilə ev oyununda Messi azarkeşlər tərəfindən fitə basıldı. Eh, baxın, görün də təkcə Barselonada deyil, bütün İspaniyada, Argentinada özünü “şah” kimi aparan və elə bu cür də dəyərləndirilən futbol əfsanəsi Parisdə ikinci oyunda da az qala solmuş vəziyyətdə əvəzlənir, sonra birdən-birə ağıla gəlməyən şəkildə futbolçuların ayaqları altında yerə “sərilir”, daha sonra da fit “sədaları” altında oynayır. Görəsən, hamıya şok anlar yaşadan Messi özü bu vəziyyətlərə düşməsini necə qəbul edir?! Mən isə hər şeydən əvvəl onu deyə bilərəm ki, Messi hamını təəccübləndirdi və təəssüfləndirdi. Axı, sən elə zirvədə olmaq üçün futbola gəlmisən. Sən zirvənin başında idin. Özü də ən uca zirvədə. Axı, mən yazılarımda bir neçə dəfə qeyd etməşəm ki, elə futbolçular var ki, həmişə zirvələrdə düşünür. İlk olaraq da səni nəzərdə tutmuşam. Həmişə azarkeşləri, mütəxəssisləri heyran qoyan super ulduz futbolçunun get-gedə belə vəziyyətlərə düşməsinə nə ad verək?! Axı, sən niyə ulduzunun sönməyini gözləyirsən?! Ulduzu parlayan dahi futbolçunun bir gün də ulduzu sönəcək. Bu, də həyatın qanunudur. Karyeranın sonuna yaxın daha düşüncəli şəkildə addım atmaq olmazdımı?! Zirvədən düşdükdən sonra karyeranı tərk etməyin elə də izi qalmır. Uca dağların zirvəsində olaola düşünülmüş, planlı, Messi adına layiq bir qərar qəbul etmək olmazdımı ?! Heç olmasa, ABŞ-a, Çinə, ərəb ölkələrinə baş vurmaq olar. Məncə, ən yaxşısı - peşəkar karyeranı bitir və əfsanə kimi də get! Görünür, sən istəyirsən həmişə nəhəng komandalarda oynayasan və səni də həmişə alqışlasınlar. Amma reallıqlar başqa şeylər diqtə edir. Digər tərəfdən də indi bizim günlərin zirvələrinə qalxmaq istəyənlər çoxdur. Və rəqabət də böyükdür: Mbappe, Salah, Haaland, Benzema, Levandovski, Vinisius, Luis Dias, Mahrez, Keyn, Son Xın Min, Leao və başqaları. Karyeralarının pik həddinə çatmış bu ulduzlar futbol panoramasında yeni qaynaşma yaradıblar.

Ola bilər ki, mənim bu fikirlərim bir az qəribə səslənsin. Amma bu qəribəliyin içərisində də bir gerçəklik var. İndi nəhəng klublar fundamental strukturlara malikdir. Parlayan futbolçuları dərhal almaq istəyirlər. Ona görə də qoy azarkeşlərin yaddaşında ötüb keçmiş nağılabənzər illər qalsın! Yaddaşlarda, xatirələrdə qalmaq bacarığını, möhürünü gərək qoruyub saxlayasan. Həyatda olduğu kimi futbolda da əsas bu deyilmi?! Odur ki, nə qədər dünya sizin əlinizdədir, vaxtında getmək lazımdır...

Beləliklə, bu maraqlı və aktual mövzu ətrafında mənim də xırda-para qənaətlərim var idi ki, onları da futbolsevərlərlə paylaşmaq istədim. Vəssalam!..

# Dünya idmanı

## “Red Bull”un İspaniya zəfəri

Formula 1 üzrə İspaniya Qran Prisinin qalibi adına aydınlıq gəlib. “Red Bull” komandasının pilotu Maks Ferstappen mərhələnin qalibi olub. O, “Ferrari”nin sürücüsü Çarlz Leklerin avtomobildəki texniki problemlərə görə yarışı yarımçıq başa vurmasından istifadə edib. İkinci yeri onun komanda yoldaşı Serxio Peres tutub. Üçüncü yerə isə “Mercedes”in pilotu Corc Rassel sahib çıxıb.



olimpnews.az - sizin saytınız




## Qətərə yollanacaq hakimlər müəyyənləşib

FIFA bu il Qətərdə keçiriləcək futbol üzrə dünya çempionatının oyunlarına təyinat alacaq referilərin adlarını açıqlayıb.




Qurum açıqladığı siyahıda 36 əsas, 69 köməkçi və 24 VAR hakiminin adı yer alıb.

Ruandalı Salima Mukansanqa, fransalı Stefani Frappar və yaponiyalı Yoşimi Yamaşita mundialın final mərhələsinə təyinat alan ilk qadın hakimlər kimi tarixə düşüblər.

Qeyd edək ki, Qətər-2022 dünya çempionatları tarixində ilk dəfə yayda deyil, noyabrın 21-dən dekabrın 18-dək olan müddətdə təşkil olunacaq.

## UEFA bu dəfə “Puşkaş Arena”nı seçdi

UEFA Avropa Liqasının 2022/2023-cü il mövsümünün finalına ev sahibliyi edəcək şəhərin adına aydınlıq gəlib. Bu Macarıstanın paytaxtı Budapeşt şəhəridir. Həlledici oyun mayın 31-də Macarıstanın paytaxtındakı “Puşkaş Arena”da keçiriləcək. 2019-cu ildə istifadəyə verilən stadion 65 min azarkeş tutumuna malikdir.

UEFA, həmçinin 2024-cü ildə turnirin final matçının Dublində, növbəti il isə Bilbaoda keçiriləcəyini açıqlayıb.

## “Rossonerilər”in 19-cu skudettosu

İtaliya A Seriyasının qalibinin adına aydınlıq gəlib. Çempionatının 38-ci turunda




“Sassuolo” futbol klubunu 3:0 hesabı ilə məğlub edən “Milan” komandası turnirin qızıl medallarına sahib çıxıb. Qolları Olivye Jiru (17, 32-ci dəqiqə) və Frank Kesye (36) vurublar. “Milan” 86 xal toplayıb və son tura qədər çempionluğa iddialı olan “İnter”i iki xal qabaqlayıb.

Beləliklə, “Milan” komandası 11 ildən sonra yenidən İtaliya çempionu adını qazanıb.

“Rossonerilər” sonuncu dəfə 2010-2011 mövsümündə skudettonu əldə etmişdilər. Bu, “Milan”ın ümumilikdə 19-cu çempionluğudur.

Qeyd edək ki, 3-cü pillədə 79 xalla “Napoli” qərarlaşıb.

## “Şəhərlilər” əzmkar qələbə sayəsində çempion oldular

“Mançester Siti” klubu 8-ci dəfə İngiltərə çempionu adını qazanıb. “Şəhərlilər” İngiltərə Premyer Liqasının 38-ci turu çərçivəsində “Aston Villa”nı 3:2 hesabı ilə məğlub edərək bu titula sahib çıxıblar. Qolları İlkay Gündoğan (76 və 81-ci dəqiqə) və Rodri (78), “Aston Villa” heyətində isə Metti Keş (37) və Felipe Koutinyo (69) vurub. Beləliklə, oyuna 0-2 hesabı ilə geri başlayan “Mançester” təmsilçisi əzmkar oyun nümayiş etdirərək həm qələbə, həm də İngiltərə Premyer Liqasının qalibi adını qazanıb.

Son tura qədər çempionluq şanslarını saxlayan Yurgen Kloppun çalışdırdığı “Liverpul” klubu isə “Vulverhempton”la qarşılaşıb. “Mersisaydlılar” bu oyunda 3:1 hesablı qələbəyə sevinsələr də, lider “Mançester Siti”dən bir xal az toplayaraq çempionatı ikinci sırada başa vurublar.

“Çelsi” komandası çempionatda üçüncü, “Tottenhem” klubu isə dördüncü yeri tutub.




Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19